***Nafilə Abuzərli***

***Xocalı soyqırımı!***

Əsrin faciəsidir
Xocalı soyqırımı.
Ədalətin yasıdır
Xocalı soyqırımı.
Çıxarılmış gözlərdir
Xocalı soyqırımı.
Oyuq-oyuq dizlərdir
Xocalı soyqırımı.
Dağ basılmış üzlərdir,
Boğazlara tıxanıb
Bizi boğan sözlərdir
Xocalı soyqırımı.
Düşmənlərə lənətim
Xocalı soyqırımı.
Tükənməyən nifrətim
Xocalı soyqırımı.
Qıvrılıb yatan kinim,
İçimdəki nisgilim,
Vədə gözləyən
hökmüm
Xocalı soyqırımı.
Duz səpilmiş yaramdır
Xocalı soyqırımı.
İntiqamsız yaşamaq
Bu gün mənə haramdır,
Xocalı soyqırımı.
Qisas deyə hayqıran
Qeyrətin çağrışıdır,
Kafirlərə Tanrının
Nifrini, qarğışıdır
Xocalı soyqırımı!

***Abuzərli N. Xocalı soyqırımı // Abuzərli N. Elçilər. – Bakı : Şivannəşr,2004. – S.195-196.***